# "Azərbaycan təhlükəsizliyin koordinasiya olunduğu strateji arenaya çevrilib"

**Bu gün Azərbaycan çoxsaylı beynəlxalq tədbirin ev sahibinə çevrilib. Bu, Azərbaycanın imici, müstəqil daxili və xarici siyasətinin təzahürüdür.**



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, məhz bu baxımdan dünya ölkələrinin kəşfiyyat və əks-kəşfiyyat, xüsusi xidmət orqanlarının iştirak etdiyi Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu konfrans son illər Azərbaycanın təhlükəsizlik sahəsində əldə etdiyi nailiyyətlərinin, beynəlxalq əməkdaşlıq platformasına çevrilməsinin göstəricisidir. "Bakı həm regional dövlətlər, həm də qlobal güclər arasında etimadın qurulması üçün görüş yeri rolunu oynayır. Bu gün dünyada düzən dəyişib. Dini ekstremizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya, separatizm, silah qaçaqmalçılığı - çoxsaylı hüquqazidd əməllər təhlükəsizlik sisteminin sarsıdılmasına ciddi narahatlıq yaradır. Təəssüf doğuran məsələ odur ki, beynəlxalq hüquq tam şəkildə pozulub, güc onları üstələyir. Bakıda keçirilən konfrans regional sabitlik, sərhəd təhlükəsizliyi, enerji, nəqliyyat dəhlizlərinin qorunması, terrorizmə, kibercinayətkarlığa qarşı mübarizə, aktual məsələlərin müzakirəsinə imkan yaradır və gələcəkdə koordinasiyalı şəkildə təhdidlərin qarşısının alınmasında mühüm rol oynayacaq", - deyə deputat əlavə edib.

A.Nağıyev həmçinin qeyd edib ki, Azərbaycan təkcə enerji və nəqliyyat mərkəzi deyil, həm də təhlükəsizliyin koordinasiya olunduğu strateji arenadır: "Bu da, təbii ki, Dövlət Təhlükəsizlik Xidmətinin, Xarici Kəşfiyyat sisteminin, eyni zamanda hüquq-mühafizə orqanlarının və digər aidiyyəti qurumların birgə zəhməti, Ali Baş Komandan İlham Əliyevin tədbirlərinin nəticəsidir. Prezidentin forumun iştirakçılarına müraciətində Azərbaycanın təhlükəsizliyin gündəliyində aktiv mövqedə olduğu, beynəlxalq əməkdaşlığa açıq olduğu bir daha aydın göründü. Sülh, qarşılıqlı etimad və əməkdaşlıq prinsiplərinin ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini və xarici siyasət xəttinin əsasını təşkil etdiyini nümayiş etdirdi".

Komitə sədri xatırladıb ki, Prezident müraciətində Vaşinqton görüşünü misal gətirərək, regionda yeni reallıqlar fonunda Azərbaycanın təşəbbüslərinin dəstəklənməsinin sabitliyə və inkişafa gətirəcəyini bir daha qeyd edib: "Mühüm mesajlardan biri odur ki, Azərbaycan yalnız öz təhlükəsizliyi deyil, həm regional, həm də beynəlxalq təhlükəsizliyi gücləndirmək niyyətindədir. Bu konfransda aparılan müzakirələrin, həmçinin qəbul olunan qərarların da əsas istiqaməti budur. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması tək bizim region üçün deyil, Mərkəzi Asiya, Yaxın Şərq, Avropa üçün də yeni əməkdaşlıq imkanları yaradacaq. Bir sözlə, Bakı Təhlükəsizlik Konfransı mühüm əhəmiyyətə malik olmaqla gələcəkdə də davam etdiriləcək. Bununla əlaqəli Prezidentin tapşırıqlarına uyğun olaraq konfransın katibliyi və digər icra orqanları yaradılıb. Düşünürəm ki, çox yaxın zamanda bunun müsbət nəticələrini görəcəyik".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 23 sentyabr (№203).- S.4.